## İxtisasın şifri və adı: 050807-Sosial iş

| Fenlərin sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| Ümumi fənlər | | 30 |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafım öyrənir, Azərbaycan dövlətçiliyinin formalaşmasındasiyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | *5* , |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | *4* |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| 4 | Seçmə fənlər (Seçmə fenlər ali təhsil müəssisəsi tərəfindən üəyyən edilir, spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | |
| | **Müasir təbiətşünaslıq konsepsiyası**<br>Bu fənn çətçivəsində ədəbiyyatdan tutmuş riyaziyyat və fəlsəfəyə qədər insan həyatının demək olar ki, bütün sahələrini öyrənir: Müasir təbiətşünaslıq anlayışı tarixlə qırılmaz şəkildə bağlıdır. Müasir təbiətşünaslıq konsepsiyasında müxtəlif dövrlərin filosoflarının təlimləri də öyrənilir: Aristoteldən tutmuş müasir filosoflara qədər fəlsəfi fikirlər bu elm çərçivəsində öyrənilir. Bu elm bir sıra suallara o cümlədən, İnsan nədir, onun Kainatdakı yeri nədir, dünyamız nədən yaranıb və s. kimi suallara cavab axtarır. Bu elm çərçivəsində müxtəlif müstəqil elmlərin problemləri qoyulur və onun həllinə yollara axtarılır. | |
| | **Müasir dövrün sosial problemləri**<br>Bu elm çərçivəsində qlobal sosial təhlükə əhalinin yoxsullaşması təhlükəsi, işsizlik, iqtisadi və sosial qeyri-sabitlik,sərxoşluq və alkoqolizm, asılılıq problemləri, ailə münasibətlərində ortaya çıxan problemlər, narkomaniya, sosial hadisə kimi yetimlik, korrupsiya və s. kimi sosial mənşəli problemlər öyrənilir. Bu baxımdan nəzərə almaq lazımdır ki, cəmiyyətin əsas məhsuldar qüvvəsi kimi yeni texnologiyaların, innovasiyaların, insan amilinin (insan) rolu sürətlə artır. Hər bir dövlətin inkişafi və çiçəklənməsinin əsasını məhz əhali, onun həyat şəraiti, rifah və təhsil səviyyəsi, səhiyyə və demoqrafik xüsusiyyətləri təşkil edir. Bu fənn çərçivəsində qeyd olunan sosial problemlərin genezisi, inkişaf istiqamətləri və həlli yolları öyrəniulir. | |
| | **Genderə giriş**<br>Bu fənn gender anlayışı haqqında ümumi məlumatlar, müxtəlif cəmiyyətlərdə “qadın” məsələsinə ümumi baxış və gender problemi, | |

| | | |
|---|---|---|
| | tarixən və müasir dövrdə mövcud “kişi-qadın” stereotipləri, cinslərin bərabərliyi uğrunda mübarizə zamanı müydana çıxmış feminizm anlayışı və feminist hərəkatları, onların cəmiyyətlərin sosial institutlarında sosial-siyasi, o cümlədən iqtisadi dəyişikliklərə səbəb olmaqlarından bəhs edir. | |
| 4.1 | **Multukulturalizmə giriş**<br>Bu fənn daxilibdə bir sıra məsələləri, o cümlədən multikulturalizm fənninin mahiyyəti və əhəmiyyəti, Azərbaycanda yaşayan müxtəlif azsaylı xalqların adət-ənənələri, multikulturalizmin sosial-iqtisadi inkişafa təsirləri, multikulturalizmin xarici siyasətə təsirləri, multikulturalizmi Azərbaycan Respublikasının Dövlət siyasəti olaraq təhlil etmək, Azərbaycan multikulturalizmi ilə dünya multikulturalizm nümunələrini müqayisəli təhlili və s. kimi məslələri öyrənir. | 3 |
| | **Fəlsəfə**<br>Bu fənn fəlsəfənin yaranması və inkişafının əsas mərhələləri, varlıq haqqında fəlsəfi təlim, materiya anlayışı. Müasir elm materiyanın quruluşu haqqında, hərəkət. Məkan və zaman, dialektikanın əsas qanunları və kateqoriyaları, fəlsəfədə şüur problemi, insanın fəlsəfi anlamı, təbiət və cəmiyyət, idrak və onun strukturu, elmi idrak və onun metodları, yaradıcılıq və intuisiya, elmin etikası, sosial idrakın spesifikliyi. Cəmiyyət özüinkişaf edən sistemdir, ictimai həyatın əsas sferaları. İqtisadi həyatın fəlsəfi səpkisi, cəmiyyətin sosial sferası, siyasi həyatın fəlsəfi təhlili, cəmiyyətin mənəvi həyatı, tarixi prosesin subyektləri və hərəkətverici qüvvələri, mədəniyyət və sivilizasiya, şəxsiyyət və sosial dəyərlər təhlil və tədqiq edilir. | |
| | **Politologiya**<br>Politologiya siyasət haqqında elmdir. Siyasi fikrin inkişafının əsas mərhələləri. Azərbaycanın siyasi fikrinin inkişaf mərhələləri. Siyasət cəmiyyətin tənzimləyici, təşkiledici və nəzarətedici funksiyasıdır. Siyasi hakimiyyət və onun daşıyıcıları. Siyasi elita. Siyasi sistem nəzəriyyəsi. Siyasi rejimlər. Siyasi partiyalar və partiya sistemləri. Demokrasiya: əsas təsisatlar. Parlament başlıca demokratik təsisatdır. Seçki sistemləri. Dövlət başlıca siyasi təsisatdır. Siyasi şüur və siyasi ideologiya. Siyasi mədəniyyət. Vətəndaş cəmiyyəti. Dünya siyasəti nəzəriyyəsi və beynəlxalq siyasi münasibətlər. Modernləşdirmə konsepsiyası siyasi inkişafin nəzəri modeli kimi. Siyasi texnologiyalar. Siyasi tədqiqatlar və siyasi təhlil. Siyasi qərarların qəbulu. Beynəlxalq münasibətlərin politologiyası.Beynəlxalq siyasətin qlobal problemləri . Dövlətin xarici siyasət fəaliyyəti. | |
| | **Məntiq**<br>Məntiq fənni insana imkanları obyektiv qiymətləndirməyə, tez və düzgün qərar verməyə, fikirləri aydın şəkildə ifadə etməyə, həmsöhbəti düzgün arqumentlərdən istifadə edərək inandırmağa, qeyri-müəyyən vəziyyətlərdən uzaq olmağa kömək edir. Bu fənn məntiqi düşünmə qabiliyyətini qiymətləndirir, məntiqi qanunauyğunluqları qavramaq və tətbiq etmək bacarığını ölçür və müxtəlif sahələrdə məlumat fondunun nə qədər zəngin olduğunu öyrənməyə imkan verir. | |
| | **Iqtisadiyyat**<br>Fənnin əsası mülkiyyət münasibətləri, iqtisadi sistem, iqtisadi insan modelləri, iqtisadiyyatda əmək münasibətləri, əmək bazarı, əmək haqqı, məşğulluq, həyat səviyyəsi, əmtəə-pul münasibətləri, istehlak xərcləri və | |

| | | |
|---|---|---|
| 4.2 | mənfəət, bazar iqtisadiyyatı və onun modelləri, kapital bazarı, torpaq bazarı, renta münasibətləri, ictimai təkrar istehsal sistemində qeyri-istehsal sahələrinin rolu, müasir iqtisadi şəraitdə sığorta, dünya təsərrüfatı ilə bağlı məsələləri əhatə edir.<br>**Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitisiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları.<br>**İnsan hüquqları**<br>Müasir dövrdə əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir. Mütərəqqi haldır ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğu tarixində ilk dəfə olaraq insan hüquqlarının təbii xarakter daşımasını özündə əks etdirmişdir. Belə ki, Əsas Qanunumuza müvafiq olaraq, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır və bu hüquqların da reallaşdırılmasında keyfiyyətli hüquq təhsilinin mühüm rolu şübhəsizdir.<br>Fənnin proqramında insan hüquqlarının ən aktual məsələlərinə həsr olunmuş mü-hazirələr öz əksini tapmışdır. Əsas etibarilə insan hüquqlarının anlayışı, mahiyyəti və əsas prinsipləri, müasir strukturu, mənbələri, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, universal müqavilə və qeyri-müqavilə mexanizmləri, Avropa Şurası və insan hüquqlarının müdafiəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, insan hüquqlarının beynəlxalq müdafiəsinin regional sistemi, insan hüquqlarının müdafiəsində ombudsmanın rolu, insan hüquqları və beynəlxalq humanitar hüquq kimi mövzulara həsr olunmuş mühazirələrin tədris olunması nəzərdə tutulmuşdur. | 3 |
| | **İxtisas fənləri** | 120 |
| 5 | **Sosial işdə riyazi metodlar**<br>Bu fənni tələbələrin riyazi metodları sosial işə tətbiq edə bilməsinə yardımçı olacaqdır. Bu fənn analitik bacarıqların formalaşması, gələcəkdə tədqiqatın keçirilməsi və xüsusilə ölçmə və təhlil məsələləri ilə bağlı bilik və bacarıqların formalaşması və inkişafı istiqamətində vacib yer tutur. Bu kursun tədrisi nəticəsində tələbələr cəmiyyətdə gedən proseslərə riyazi elminin apparatının tətbiqi ilə bağlı təməl biliklərə yiyələnir. | 4 |
| 6 | **Sosiologiya**<br>Bu fənn sosial hadisələri və prosesləri bütöv sosial sistem olan cəmiyyət kontekstində nəzərdən keçirir, sosiologiyanın strukturunu, predmetini, metodologiyasını, metodlarının xüsusiyyətlərini, müasir sosioloji biliyin nəzəri səviyyələrini, eləcə də xüsusi sosioloji konsepsiyaların rəngarəngliyini təhlil və tədqiq edir. Bu sahədə elmi axtarışların mümkün perspektivlərini öyrənir. | 4 |
| 7 | **İnformatika** | 4 |

| | | |
|---|---|---|
| | İnformatika - kompyuterlərdən və şəbəkələrdən, xüsusən internetdən istifadə etməklə bağlı olan yeni fənn və yeni informasiya sənayesi sahəsidir. "İnformatika” fənn və elmi istiqamət kimi kompyuterlərin köməyi ilə informasiyanın yığılması, emalı və ötürülməsinin metod, prinsip və qanunlarını öyrənir İnformatika kompyuterləşdirilmiş informasiya sistemlərinin fəaliyyətinin layihələşdiril məsinin, işləni lməsinin, yaradılmasının, səmərəliliyininqiymətləndirilməsinin, onun müxtəlif sahələrdə tətbiqinin və təsirinin bütün aspektlərini öyrənən kompleks elmdir. Müasir dünyanı və elmi informatikasız təsəvvür etmək mümkün deyil. İnformasiya texnologiyaları dəlil əsaslı biliyin öyrənilməsi, onun axtarılması, ötürülməsi üçün əvəzsiz rol oynayır. | |
| 8 | **Psixologiya**<br>Psixologiya psixofizioloji, sosial-psixoloji fenomenlər və onların təbiəti, işləmə mexanizmləri, funksiyaları daxil olmaqla insanın psixi həyatının, davranışının meydana gəlməsi və inkişafının qanunauyğunluqları haqqında elm olub, psixi prosesləri, psixi halları, psixi xassələri, bötüvlükdə psixi hadisələri öyrənən elm sahəsidir. Psixologiyanın predmeti həm konkret şəxsin psixikası və psixi hadisələri, həm də qrup və kollektivlərdə müşahidə olunan psixi hadisələrdir . Psixologiya psixi proseslər, psixi vəziyyətlər və psixi xasslərin insanın davranışında təzahürlərinin öyrənilməsi vasitəsilə psixikaya nüfuz edir. Bu kursda psixologiyanın tarxiri, psixikanın formalaşma mexnizmləri, fəaliyyətin psixologiyası, şəxsiyyətin psixologiyası, eləcə də temperamnet, qabiliyyət və xarakter, emosional-iradi xüsusiuyyətlər kimi mövzular öyrədilir. . | 4 |
| 9 | **Neyrobiologiya**<br>Neyrobiologiya sinir sisteminin və beynin necə işlədiyini öyrənən elm sahəsidir. Burada sistemi, beyin funksiyası və onurğa beyni kimi əlaqəli strukturları araşdırlır. Neyrobiologiya həm fiziologiyanın, həm də nevrologiyanın bir alt hissəsidir. Neyrobioloji tədqiqatlar şəxsiyyətə, duyğulara, mühakiməyə, problem həllinə, mücərrəd düşüncəyə, diqqətə və planlaşdırmaya töhfə verməklə rol oynayır. | 4 |
| 10 | **Sosial işə giriş**<br>“Sosial işə giriş” fənni sosial iş, onun predmeti, səviyyələri, müxtəlif fəaliyyət sahələrində - uşaqlar, ahıllar, ailələr, əlilliyi olan insanlar və digər həssas təbəqədən olan hədəf qrupları ilə sosial iş qaydaları və prosesinə dair məlumat verir. Tələbələri həmçinin sosial iş fəaliyyəti zamanı sosial işçiyə lazım olan etik dəyər və prinsiplərlə tanış edir. Bu fənn sosial işin sosial funksionallığı artırmaq, bacarıqları yeniləmək, gücləndirmək və qarşıya qoyulmuş məqsədə uyğun sosial şərait yaratmaq üçün fərdlərə, qruplara, ailələrə və icmalara dəstək verən peşə kimi mənimsənilməsini təmin edir. | 6 |
| 11 | **Sosial iş təcrübəsində etik prinsiplər**<br>Sosial iş təcrübəsində etik prinsiplər fənni tələbələri sosial iş təcrübəsində müxtəlif müraciətçi kontingenti, əlilliyi olan şəxslər, uşaqlarla, yaşlı insanlarla, ailələrlə, qruplarla, icmalarla ünsiyyət qurmaq, iş prosesində tələb olunan etik bilik və bacarıqlarla tanış edir. Tələbələrə təcrübə zamanı sosial işçinin müraciətçi ilə qarşılıqlı münasibətlərini düzgün qurması üçün tələb olunan ünsiyyət vərdişləri, həmkarları ilə iş prosesində, təcrübə mübadiləsində gözləməli olduğu etik qaydalar öyrədilir. Bu fənnin tədrisi ilə tələbələr sosial işin dəyərləri, sosial işdə etik norma və prinsiplər, sosial | 6 |

| | | |
|---|---|---|
| | işdə münaqişəli situasiyaların, dilemmaların həlli üsulları ilə tanış olacaq, eyni zamanda sosial iş təcrübəsi zamanı zəruri olan etik bilik, bacarıq və vərdişləri inkişaf etdirəcəklər. Sosial işçinin peşə fəaliyyətindən asılı olmayaraq fəaliyyətində rəhbər tutduğu dəyərlər izah olunur. Onun fəaliyyətini tənizmləyən standartlar, normalar, prinsiplər, qaydalar təqdim edilir. Etik prinsiplərin mənimsənilməsi sosial işçinin peşəkar fəaliyyət göstərməsinə zəmin yaradır. | |
| 12 | **Sosial işin nəzəriyyəsi və təcrübəsi**<br>Sosial işin nəzəriyyəsi və təcrübəsi fənni cinayətkarlıq, qanun-pozuntusu, zərərli maddələrdən asılılıq, ailə və uşaq zorakılığı və insan davranışları ilə bağlı müəyyən halları izah etmək üçün əsaslı biliklər verir. Fənn həmçinin sosial işdə stress, davranış, sistem nəzəriyyələrini və onların real keyslər üzərində tətbiqini əhatə edir. Bu nəzəriyyələrin köməyi ilə sosial işçilər fərdlər, qruplar və icmalarla işləmək, problemli situasiyalarda insan davranışlarının altında duran səbəbləri təxmin etmək, açıqlaya bilmək və keysin uğurlu həlli üçün qiymətləndirmə aparmaq bacarığına yiyələnirlər. Fənnin nəzəriyəsinin öyrənilməsi ixtisasən elmi əsaslarının dərki üçün önəmlidir. Peşəkar sosial işçi müxtəlif nəzəriyyələritətbiq edərək problemlərin səbəbini müəyyən edir və müvafiq müdaxilələr tətbiq edirlər. İnsan davranışını, davranışda deviasiyanı müəyyən etməyin ən effektiv yolu nəzəriyyədir. Təcrübə isə bütün biliklərin real həyat şəraitlərində tətbiq olunmasını təmin edir. Yardımın peşəkarlıq səviyyəsini müəyyən edir. | 11 |
| 13 | **Sosial statistika**<br>"Sosial statistika" fənni tələbələrə sosial statistikanın ümumi məsələləri: nəzəri əsasları, obyekt və predmeti, vəzifələri və digər elmlərlə qarşılıqlı əlaqəsi, sosial statistikanın göstəricilər sistemi, əhali və əmək ehtiyatları statistikası və əhalinin təbii hərəkət statistikası, əhalinin siyahıya alınmasının qaydaları haqqında məlumat verir və informasiya bazaları ilə tanış edir. Həmçinin, Əmək bazarı, işçi qüvvəsinin hərəkət göstəriciləri və iş vaxtı fondları, əmək haqqı statistikasının göstəricilərinə dair məlumatların əldə edilməsi və ümumiləşdirilməsini öyrədir. Əhalinin həyat səviyyəsi, əhalinin pul gəlirləri, xərcləri və istehlak göstəriciləri, əhalinin mənzil şəraiti, mənzil-kommunal, məişət, nəqliyyat və rabitə xidmətləri, səhiyyə xidməti, idman və təhsil, mədəniyyət, incəsənət və turizmin inkişafı, hüquq və məhkəmə statistikası haqqında məlumatları təhlil etmək bacarıqları ilə təmin edir. | 4 |
| 14 | **Sosial proqramlar və xidmətlər**<br>Sosial proqramlar və xidmətlər fənnində sosial proqramlar və xidmətlərin mahiyyəti, məqsədləri və vəzifələri, onun təsviri, dünya praktikasında bu cür proqramların və xidmətlərin göstərilməsi üzrə təcrübə, Azərbaycanda həyata keçirilən sosial proqramlar, sosial xidmətlər anlayışı, sosial xidmətlərin subyetləri, prinsipləri və qanunla tənzimlənən prosedurlar, sosial işçi və sosial xidmətçilərin hüquq və vəzifələrini, sosial xidmətin növləri və formaları, göstərilən sosial xidmətlər üçün mütəxəssislərin bilik və bacarıqları, əhalinin ümumi sosial duruma müsbət təsir, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan təbəqələrə göstərilən xidmətlər vasitəsi ilə onların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş mövcud sosial proqramlar və xidmətlərin icra mexanizmləri və s. kimi məsələləri əhatə edir. Uşaqlara sosial xidmət göstərilməsi, ahıllara sosial xidmət göstərilməsi, cəza çəkmə müəssisələrindən azadlığa çıxmış şəxslərə | 5 |

| | | |
|---|---|---|
| | göstərilən xidmətlər, insan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi, çətin həyat şəraitində olan şəxslərin (ailələrin) sosial xidmətə götürülməsi və dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi qaydası ətraflı şəkildə izah olunur. Fənnin tədrisində əsas məqsəd dövlətin sosial sahədə apardığı siyasəti və cəmiyyətin sosial sahədə ehtiyacı olan bəzi əhali kateqoriyalarına bu sahədə daha yüsək səviyyədə sosial xidmətin göstərilməsi bacarıqlarına yiyələnən mütəxəssis hazırlamaqdan ibarətdir. | |
| 15 | **Sosial siyasət**<br>Sosial siyasət fənnində sosial siyasət anlayışı, əsas məqsədləri və subyektləri və funksiyaları öyrənilir. Bu kursda sosial siyasətin tarixi tipləri və modelləri, sosial dövlət, sosial dövlət konsepsiyasının inkişaf istiqamətləri, əməkvə məşğulluq siyasəti, ailə, uşaq və gənclər siyasəti, Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsasları, Sosial təhlükəsizlik şərh edilir. Sosial siyasət fənninin tədrisi tələbələrdə sosial siyasət, sosial dövlətin qurulması haqqında ümumi biliklərin formalaşmasında əhəmiyyətli rol oynayır. Fənnin tədrisində əsas məqsəd dövlətin sosial sahədə apardığı siyasət və bu sosial siyasətin müxtəlif aspektlərinin təhlili vasitəsilə onun stimullaşdırıcı rolunun təhlili aparılması bacarıqlarına yiyələnən mütəxəssis hazırlamaqdan ibarətdir. Tələbələrdə sosial siyasətin həyata keçirilməsi haqqında düzgün fikir formalaşdırmaq, sosial siyasətin həyata keçirilməsi ilə bağlı təhlil vərdişlərini inkişaf etdirməkdən ibarətdir.. | 5 |
| 16 | **Fərdlər, qruplar və ailələrlə sosial iş**<br>Fərdlər, qruplar və ailələrlə sosial iş fənni istismara məruz qalmış və həssas təbəqədən olan fərdlərə, ailələrə və onların aid olduqları müxtəlif sosial qruplara sosial, psixoloji, maddi və hüquqi yardım üçün lazım olan əsas bilik və bacarıqların tədrisini əhatə edir. Cəmiyyətlər ümumilikdə müxtəlif fərdlər, qruplar və ailələrdən təşkil olunduğu üçün fənnin tədrisi onların rastlaşdıqları problemlərin ayrıca araşdırılması və keyslərə müvafiq şəkildə müdaxilə planının hazırlanması istiqamətində sosial iş strategiyalarının seçilməsini nəzərdə tutur. Sosial işçilər əhalinin müxtəlif qrupları ilə işləyir. Bu fənn onlarla işin üsullarını, müdaxilə strategiyalarını, xüsusiy-yətlərini özündə cəmləşdirmişdir. Sosial iş ailəni uşaqlarınsağlam inkişafi və rifahı üçün ən uğurlu yer qəbul edir və bu fənni tədris edərək ailələrin möhkəmləndirilməsi və onların problemlərinin həlli yolarından bəhs edir. | 6 |
| 17 | **Defektologiya**<br>Defektologiya fənni nitq pozuntuları, onların qarşısının alınması, diaqnostikası və aradan qaldırılması üsulları, o cümlədən əqli və fiziki qüsurları olan uşaqların inkişafının psixofiziki xüsusiyyətlərini, onların təhsil və tərbiyə prosesinin qanunauyğunluqlarının öyrədir. Bu fənn çərçivəsində tələbələrə nitq terapiyası, nitq pozuntularının səbəbləri, mexanizmlərini, simptomlarını, gedişi, strukturu və korreksiyaedici tədbirlər sistemi haqqında məlumat verilir. | 6 |
| 18 | **Sosial işdə tədqiqat metodları**<br>Sosial işdə tədqiqat metodları fənni tələbələrə cəmiyyətdə mövcud müxtəlif etnik, sosial-sinfi, həmçinin əhalinin yaş, cins kimi demoqrafik kateqoriyalarına mənsub insanları arasında sosial-psixoloji, sosial-iqtisadi, mədəni mühitin araşdırılmasını öyrədir. Cəmiyyətin inkişafi üçün sosial tədqiqatların aparılmasını, bunun üçün tədqiqatın obyekt və predmetinin seçilməsini, tədqiqat məqsədinin qoyuluşunu, metodlarını öyrədir. Tədrisin | 9 |

| | | |
|---|---|---|
| | nəticəsində tələbələr etibarlı və mötəbər empirik nəticələrin əldə edilməsi üçün tədqiqat metodologiyasının və metodikasının əsaslarını mənimsəməli, bu sahədəki problemlər haqqında təsəvvürə malik olmalı, peşəkar sosial işçi-tədqiqatçının peşə vərdişlərinə yiyələnməlidirlər. | |
| 19 | **Psixi sağlamlıq**<br>Bu fənn çərçivəsində tələbələr psixi sağlamlığın obyektini, predmetin'ı, məqsədini, metodlarını, əsas istiqamətlərini, əsas anlayışlarını, problemlərini və bu problemlərin həlli yollarını öyrənirlər. Psixi sağlamlıq – insanın psixi durumu, onun davranışlarının tənzimlənməsi, eyni zamanda sosial və bioloji amillərin təsiri ilə psixi sağlamlığın düzgün formalaşması ilə xarakterizə olunur. Bu fənn daxilində psixi sağlamlığın insanın özünə və ətrafdakı insanlara olan münasibətini çalaraları, ümumilikdə bütün həyatı boyu müxtəlif hadisələrə, sosial və iqtisadi çətinliklərə qarşı münasibətinin xüsusiyyətləri inikas olunur. Psixi sağlamlıq insanın sosial-iqtisadi vəziyyəti ilə yanaşı onun fiziki sağlamlığı ilə sıx bağlıdır və tədris zamanı bu məsələ ön plana çəkilməlidir. | 6 |
| 20 | **Azərbaycanda sosial yardım sistemi**<br>Azərbaycanda sosial yardım sistemi fənnində əhalinin sosial müdafəsinin elmi-nəzəri aspektləri, dövlət sosial yardımının təşkili və müasir dövrdə sosial işin səciyyəvi xüsusiyyətləri öyrənilir. Bu kursda sosial müdafiənin əsas anlayışları, sosial yardım, sosial xidmət, sosial təminat sistemi, sosial təminatın hüququnun mənbələri, sosial sığorta, ünvanlı dövlət sosial yardımı, əmək pensiyası anlayışı, mahiyyəti və əsas göstəriciləri şərh edilir. Azərbaycanda sosial yardım sistemi fənninin tədrisi tələbələrdə sosial müdafiə haqqında ümumi biliklərin formalaşmasında əhəmiyyətli rol oynayır.Fənnin tədrisində əsas məqsəd dövlətin sosial sahədə apardığı siyasəti və cəmiyyətin sosial sahədə ehtiyacı olan bəzi əhali kateqoriyalarının problemlərinin öyrənilməsi və bu sahədə daha yüsək səviyyədə sosial xidmətin aparılması bacarıqlarına yiyələnən mütəxəssis hazırlamaqdan ibarətdir. Tələbələrdə sosial müdafiə sisteminin subyektləri haqqında düzgün fikir formalaşdırmaq, müavinətlərin müəyyən edilməsi vərdişlərini inkişaf etdirməkdən ibarətdir. | 6 |
| 21 | **Qloballaşma və beynəlxalq sosial iş**<br>“Qloballaşma və Beynəlxalq Sosial İş” fənni vasitəsilə qloballaşmanın əsas tendensiyaları, müxtəlif qlobal problemlər, qlobal siyasətin dərk edilməsi və ona təsir edən mexanizmlər, beynəlxalq təşkilatlar və onların qlobal problemlərin həlli istiqamətində fəaliyyətləri haqqında məlumatlar verilir. Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı, əhalinin sosial müdafiəsi: xarici ölkələrdə sosial müdafiə və sosial təminat siyasətinin təşkili təcrübəsi müqayisəli şəkildə təhlil edilir. Beynəlxalq sosial iş və onun qısa tarixi, təcrübə sahələri və onun səviyyələri, forma və metodları, sosial işdə xarici təcrübənin öyrənilməsi metodologiyası, xarici təcrübəni öyrənməyin vəzifəsi, sosial işin xarici təcrübəsini öyrənərkən istifadə edilən ümumi və xüsusi metodlar öyrədilir. Eyni zamanda tələbələr müasir dünyada əsas sosial iş modelləri: Amerika sosial iş modeli və Avropa sosial iş modelilə tanış edilir, həmçinin beynəlxalq sosial işdə etik prinsiplərə riayət etməyin əhəmiyyəti vurğulanır. | 5 |
| 22 | **Sosial psixologiya**<br>Sosial psixologiya fənni sosial-psixoloji təfəkkürün əmələ gəlməsi, inkişafi tarixini metodiki və metodoloji məsələləri, şəxsiyyətin yönəlişləri, | 6 |

| | | |
|---|---|---|
| | sosializasiyanın sosial-psixoloji effektlərini, qrup nəzəriyyəsinin ümumi məsələlərini, ünsiyyətin sosial-psixologiyasını, ünsiyyət prosesində psixoloji təsir məsələlərini öyrənir. Bu kurs daxilində sosial psixologiyanın tarixi və nəzəriyyəsi, elmin formalaşmasının metdoloji əsasları,isanların ünsiyyət və qarşılıqlı münasibətlərinin sosial-psixoloji qanunlarının təhlili, şəxsiyyət problemləri, peşəkar əhəmiyyətli şəxsiyyət əlamətlərinin sistemləşdirilməsi, sabit, müsbət münasibətlərin formlaşdırlması yolları, tətbiqi tədqiqatın əsas istiqamətlərinin öyrənilməsi təqdim olunur. Bununla yanaşı bu fənn şəxsiyyətdaxili (emosiyalar, sosial idrak, yönəliklik, “mən” anlayışı) və şəxsioyyətlərlərarası (digərlərinə kömək etmə, aqressiya, qərəzli münasibət və ayrıseçkilik, cəlb etmə, qrup prosesləri və qruplar arası münasibətlər) səviyyələrdə baş verən prosesləri təhlil edir. | |
| 23 | **Sosial pedaqogika**<br>Bu fənn çərçivəsində gənc nəslin tərbiyəsi, uşaqların təlim-tərbiyə məsələləri,uşaqların tərbiyə, təhsil və təliminin başlıca məqsədləri, təhsilin məzmunu, qanunauyğunluqları və təşkilinin səmərəli yollarının müəyyənləşdirilməsi və s. kimi məsələlər sosial baxımdan öyrənilir. Bir sözlə pedaqogika sosial kontekstdən nəzərdən keçirilir. Sosial pedaqogika bir elm sahəsi kimi öz-özlüyündə sosial və pedaqoji hadisələri öyrənmir, onun fenomenologiyasını sosial-pedaqoji hadisələr təşkil edir. Bununla yanaşı bu fənn sosial pedaqogikanın nəzəri-metodoloji məsələlərini, kateqoriyalarını, qanunauyğunluqlarını, şəxsiyyət problemini, insanları əhatə edən sosial və təbii mühiti, orada baş verən dəyişikliklər və inkişafı və onların təsiri, şəxsiyyətin formalaşma prosesinin amillərini, təhsil və tərbiyənin şəxsiyyətin sosiallaşmasında rolunu, uşaqların sosail müdafiəsi, müxtəlif tədris və tərbiyə müəssisələrində ailə və uşaq kollektivlərinin sosial fəaliyyətinin nəzəriyyə və metodikasını əhatə edir. | 5 |
| 24 | **Keys menecment**<br>Sosial işdə keys menecment keysin idarə edilməsi, peşəkar sosial işçinin müraciətçinin və onun ailəsinin ehtiyaclarını qiymətləndirməsi və tələblərə cavab vermək üçün çoxsaylı xidmətlər paketinin təşkili, onların əlaqələndirilməsi, monitorinqi, keys bağlandıqdan sonra yekunlaşdırmanın və qiymətləndirmənin təqdim edilməsi üsuludur. Peşəkar sosial işçi sosial işdə keys menecmentin idarə edilməsinin əsas təminatçısıdır. Sosial işin idarə edilməsi həm mikro, həm də makro xarakter daşıyır, yəni müdaxilə həm müraciətçi, həm də sistem səviyyəsində baş verir.Bu fənn müraciətçinin ehtiyaclarını qiymətləndirməyi, hansı növ xidmətə ehtiyacı olduqlarını müəyyənləşdirməyi, dəstək üçün müdaxilə planını hazırlamağı, keysin irəliləməsi zamanı onu necə izləməyi, monitorinq etməyi, lazım gəldikdə müdaxilə planında dəyişikliklər etməyi və keysi sona çatdırmağı, resursların axtarılmasını, sosial xidmətin həyata keçirilməsini və bir sıra bu kimi sosial iş təcrübəsinin praktik tərəflərini tələbələrə öyrətmək məqsədi daşıyır. | 6 |
| 25 | **Sosial işdə idarəetmə**<br>Sosial işdə idarəetmə fənnində sosial sahədə idarəetmənin predmeti, obyekti, məqsədi, subyekti öyrənilir. Bu kursda idarəetmənin daxili mühiti, idarəetmənin xarici mühiti, sosial idarəetmə sisteminin funksiyaları, sosial idarəetmənin əsas vəzifələri, funksiyaları, strukturu və prinsipləri, sosial sferada idarəetmə texnologiyaları, sosial innovasiyaların idarəedilməsi, sosial müdafiə sistemində sənəndləşmə sistemi və dövriyyəsi, sosial işdə layihələrin idarə edilməsi, layihələrin idarə edilməsi prinsipləri, | 5 |

| | | |
|---|---|---|
| | mərhələləri, effektiv taym-menecment, idarəetmənin qanunları, idarəetmədə qərarların qəbul edilməsi və mahiyyəti, sosial işin idarəetmə prosesində rəhbərin rolu, rəhbərliklə işgüzar münasibətlərin qurulması, sosial işdə liderlik şərh edilir. Sosial işdə idarəetmə fənninin tədrisi tələbələrdə komandada iş, komandanın təşkil olunması mərhələləri, uğurlu komandanın təşkili haqqında ümumi biliklərin formalaşmasında əhəmiyyətli rol oynayır. | |
| 26 | **Mülki müdafiə**<br>Bu fənn Azərbaycan Respublikasının fövqəladə halların idarə olunması, fövqəladə halların xarakteristikasını, fövqəladə hallardan əsas müdafiə üsullarını və vasitələri, fövqəladə hallar zamanı yaranmış şəraitinin qiymətləndirməsi, özünə və digər şəxslərə yardım etməyi, istehsalat proseslərində mülki müdafiə planının hazırlanması kimi məsələlərin həllərini əhatəedir. | 3 |
| | **Ali təhsil müəssisəsi tərəfindən seçilən fənlər** | 60 |
| 27. | **ASF və sensor sistemin fiziologiyası**<br>Ali sinir sistemi və sensor sistemin fiziologiyası fənni beyin haqqında təlimin əsas inkişaf sahələri, orqanizmin bir sıra mühüm həyati funksiyalarının sinir tənzimlənməsi, heyvan və insanda ali sinir fəaliyyətinin mürəkkəb davranış formalarını öyrədir. Buna əlavə olaraq, I və II siqnal sistemləri, insanın ali sinir fəaliyyətinin tipləri, xüsusiyyətləri, pozğunluqları, yuxu, motivasiya, emosiya, yaddaş, sensor sistemlər və onların funksiyası haqqında mövzuları təqdim edir | |
| | **Sosial dövlətin və vətəndaş cəmiyyətinin əsasları**<br>Sosial rifah dövlətinin yaradılmasında hüquqi təminatlar və sosial-iqtisadi tənzimləmələr mühüm rol oynayır. Sosial dövlətin əsas əlamətlərinin sosial sahədə mükəmməl qanunvericiliyin olmasını, dövlət tərəfindən müxtəlif sosial yönümlü proqramların hazırlanması və həyata keçirilməsini, vətəndaş cəmiyyətinin qurulmasını və dövlətin vətəndaşlar qarşısında sosial məsuliyyət daşımasını, dövlət tərəfindən hər bir vətəndaşın sosial müdafiəsinin təmin olunmasını və layiqli həyat şəraitinin yaradılmasını, ölkənin iqtisadi inkişafının yüksək səviyyədə olmasını nəzərə alaraq tələbələri sosial dövlət quruculuğunun mexanizmləri ilə tanış etmək və sosial işçilərin bu istiqamətdə necə fəaliyyət göstərməklərini öyrətmək bu fənnin məqsədidir. | 6 |
| 28. | **Mərkəzi sinir sisteminin (MSS) anatomiyası və fiziologiyası**<br>Mərkəzi sinir sisteminin anatomiyası tədris olunarkən tələbələrə hüceyrələr, toxumlar və ayrı-ayrı orqanlar arasında qarşılıqlı əlaqələrin yaradılmasının orqanizmin tamlığını təmin etməsində rolu təqdim olunur. Tələbələr mərkəzi sinir sisteminin orqanizmdə gedən prosesləri tənzimləyərək və orqanların işinə istiqamət verərək orqanizmin bütün fəaliyyətlərini nəzarət altında saxlamasını öyrənirlər. MSS-nin funksional vəziyyətinin orqanizmlə xarici mühit arasındakı əlaqəyə təsiri araşdırılır. MSS afferent impulsları qəbul edir, analiz və sintez edir, efferent impulsları formalaşdırır və onların təsiri ilə orqanların fəaliyyətini bu və ya digər istiqamətə yönəldir. 0, həmçinin mühitin dəyişikliklərinə və təsirlərinə qarşı bütöv orqanizmin uyğunlaşma reaksiyalarını formalaşdırır. Mərkəzi sinir sisteminin müxtəlif şöbələri haqqında biliklər təqdim olunur: onurğa beyin, baş beyin, arxa beyin, orta beyin, beyincik, ara beyin, ön beyin. | 6 |

| | | | |
|---|---|---|---|
| | **Sosial fəlsəfə**<br>Bu elm çərçivəsində cəmiyyəti, tarixi və insanı fəaliyyət və sosial-mədəni qarşılıqlı təsirlərin subyekti kimi təhlil edən fəlsəfənin avtonom tədqiqat sahələri öyrənilir .Fəlsəfi fikir tarixində öz məqsəd və vəzifələrinin fərqli dərk edilməsindən çıxış edərək iki növ sosial fəlsəfə fərqləndirilir. Bu fənn daxilində dəyərlərin sosial fəlsəfəsi fəlsəfəsi, dünyada varlığın hikməti kimi dərk edilməsi, insan varlığının cəmiyyətdə və tarixdə əhəmiyyəti, insan həyatının mənası və s. kimi məslələr öyrənilir. Müvafiq olaraq sosial fəlsəfənin vəzifəsi ən yüksək (filosofun nöqteyi-nəzərindən) dəyərlərə uyğun gələn sosial təşkilatın arzuolunan formalarını, tarixin mümkün məqsədini və ondakı layiqli varlıq normalarını insan varlığı baxımından müzakirə etməkdir. | | |
| 29.<br>29. | **Sosial ədalət və insan müxtəlifliyi**<br>Sosial işin əsas dəyərləri insanların bərabərliyinə və ləyaqətinə olan hörmət hissləridir. İnsan maraqlarının müdafiəsi, ədalətin qorunub saxlanması sosial işin bütün sferalarının əsasını təşkil edir. Sosial iş peşəsi bu fəaliyyəti sosial ədalət prinsipləri çərçivəsində icra edir. Sosial ədalət bütün insanların mülkiyyət, sağlamlıq, rifah, ədalət və imkanları bərabər şəkildə əldə edə bilmələri üçün nəzərdə tutulmuş siyasi və fəlsəfi anlayışdır.Sosial iş müxtəlif çətin şərait şəraitində və həssas vəziyyətlərdə insanlara kömək etmək üçün fəaliyyət göstərən sahə olduğundan sosial iş tələbələrinə sözügedən fəaliyyəti empatiya, səbir, açıq fikirlilik, skeptisizm, ədalətsiz və diskriminasiyaya səbəb olan stereotipləri rədd etmək, insanların yaxşıya doğru dəyişə biləcəklərinə inam və onlarda bu qabiliyyəti üzə çıxara bilmək bacarıqlarını öyrətmək vacibdir. Bu dəyişiklik peşəkar sosial ədalət hissi və resurslara çıxış kontekstində iqtisadi, siyasi və hüquqi bərabərlik istəyi ilə birlikdə öyrədilir. Bu fənn vasitəsilə tələbələr köməyə ehtiyacı olan insanlara cinsi, irqi, dini, milli və s. kimi ayrıseçkilik göstərmədən birbaşa xidmətlərin göstərilməsi, fərdlər, ailələr və qrupları özü-özünə dəstək ola bilən vətəndaşlara çevirmək və cəmiyyətin bütün səviyyələrində müsbət dəyişikliyin əldə olunması məqsədilə proseslərin asanlaşdırılması üçün tələb olunan bilik, nəzəriyyə və bacarıqları öyrənirlər. | | |
| | **Sosial sağlamlıq**<br>“Sosial sağlamlıq” fənni tələbələri sosial sağlamlıq anlayışı və sosial sağlamlığın determinantları, müxtəlif yaş dövrlərində sosial və emosional inkişafın xüsusiyyətləri, yaş dövrlərinə dair nəzəriyyə və konsepsiyalarla təmin edir. Sosiallaşma, şəxslərarası cazibə, sevgi, sosialyönlü davranış, aqressiya və s. bu kimi sosial münasibətlərdə və ətraf mühitə adaptasiya prosesində təsir göstərən faktorlara dair müxtəlif nəzəriyyələrlə tanış edir. Həmçinin ayrıseçkilik və önmühakimə nəzəriyyələri, nəzarət və ya seçim nəzəriyyəsi, cinsiyyətçilik (seksizm) və cins-rol identikliyinə sosial-psixoloji yanaşmalar, sosial sağlamlıqda həyat bacarıqlarının, yəni sosial bacarıqların, düşüncə və emosional bacarıqlarının əhəmiyyəti öyrədilir. | 6 | |
| 30. | **Multikulturalizm**<br>Bu fənn multikulturalizm haqqında ümumi anlayışları, onun inkişaf mərhələlərini, bu sahədə əsas nəzəriyyələrin xüsusiyyətlərini, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması istiqamətində dövlətin apardığı siyasəti öyrədir. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin, sosial-mədəni proseslərin mahiyyətini, onun xüsusiyyətlərini və bu siyasətin ölkədə uğurla həyata keçirilməsinin səbəblərini təhlil edir. | | |

| | | |
|---|---|---|
| | **Sosiologiya**<br>Sosiologiya ictimai hadisələri, ümumi faktları və cəmiyyəti bütövlükdə analiz edir. Sosiologiya cəmiyyətin necə dəyişdiyini, tarixi olaraq necə inkişaf etdiyini və bu prosesləri incələyən elmdir. Sosiologiya fənnində sosiologiya elminin meydana gəlməsi və inkişafi, sosiologiyanın obyekti və predmeti, sosioloji biliyin əsas paradiqmaları, sosiologiyanın funksiyaları, Qərbi Avropa ölkələrində sosiologiya elminin təşəkkülü, cəmiyyətin strukturu və inkişafi, sosial qruplar, təşkilatlar və təşkilatlararası əlaqələr, sosial mobillik anlayışı, sosial nəzarət, sosial etnik münasibətləri şərh edilir. Sosiologiya insanı sosial aspektdən araşdırır və öyrənir. Şəxsiyyətin sosial davranışı haqqında suallara cavab verməyə, şəxsiyyəti sosial əlaqələrin bütün rəngarəngliyində təsəvvür etməyə çalışır. Bununla əlaqədar olaraq, şəxsiyyətin sosial əlaqələr kontekstində öyrənilməsi gedişində sosial mühitdə şəxsiyyətin formalaşması haqqında suallara cavab verir. | 3 |
| 31.<br>32. | **İnkişaf psixologiyası**<br>İnkişaf müasir psixologiyanın əsas sahələrindən biri olub insan psixikasının inkişaf dinamikasını, psixi inkişafin zəruri şərtləri, hərəkətverici qüvvələrini, şəxsiyyətin psixi proses və psixi xassələrinin ontogenezinin inkişaf xüsusiyyətlərini, yaş dövrlərinin çoxcəhətli və ziddiyyətli olan dialektik mahiyyətini, hər bir yaş dövrünə xas olan psixoloji xüsusiyyətləri öyrənir.<br><br>**Sosial və iqtisadi mühitin sosial işə təsiri**<br>Sosial iş ətraf mühitin şəraitindən yaranan sosial, maddi və mənəvi məhrumiyyətlərin qarşısını almaq, insanların ehtiyaclarını ödəmək və onların həyat səviyyəsini yüksəltmək üçün bir sıra sistematik və proqramlaşdırılmış xidmətlərdən ibarətdir. Sosial xidmətlər fərdlərin inkişaf prosesində müasir şərtlərə uyğunlaşmağa, fərdlərin rifahını təmin etməyə, sosial dəyişikliklərə müsbət təsir göstərməyə, fərdlərin sosial funksionallığına əngəl olan maneələrin aradan qaldırılmasına, fərdlərin sosial biliklərin artırılmasına, əlverişsiz mövqenin bütün sahələrində müsbət hala çevrilməsi məqsədilə aparılır.Fənnin tədrisi məqsədi tələbələrə cəmiyyətdə baş verən geniş sosial-iqtisadi dəyişikliklərin, müharibə və təbii fəlakətlərin, eləcə də insanların şəxsi həyatlarında baş verən mənfi hadisələrin onların həyatlarına birbaşa və dolayı təsirlərini, həmçinin bu mənfi təsirlərin dövlətin sosial müdafiə sistemi vasitəsilə aradan qaldırılmasını öyrətməkdir. | 4 |
| 32. | **İdarəetmənin sosiologiyası**<br>İdarəetmənin sosiologiyası cəmiyyətdə, əmək kollektivlərində mövcud olan sosial münasibətlər şəraitində idarəetmə sistemi və proseslərini öyrənən istiqamətidir.İdarəetmənin sosiologiyası fənnində İdarəetmə anlayışını, İdarəetmənin predmetini, İdarəetmənin məqsədini, İdarəetmənin prinsip və qanunlarını, Sosial işdə layihələrin idarəolunması, İdarəetmənin tarixi dövrlərini İdarəetmənin elmi məktəblərini, Qərbdə idarəetmənin çağdaş nəzəriyyələri şərh olunur. İdarəetmənin sosiologiyası yalnız sosial proseslərin və sosial əlaqələrin idarə edilməsi deyil, elmi-texniki tərəqqinin, özünüidarəetmə, idarəçilik qərarlarının qəbulu və icrası, rəhbərlik və tabeçilik, sosial informasiyalar və s. problemlər ilə də əlaqədardır. İdarəetmənin sosiologiyası fənnin tədrisində əsas məqsəd tələbələrdə idarəetmə nəzəriyyəsi, predmeti, məqsədi və vəzifələri | |

| | | |
|---|---|---|
| | haqqında ilkin bilikləri formalaşdırmaqdan ibarətdir. Tələbələrdə İdarəetmənin prinsipləri haqqında düzgün fikir formalaşdırmaq, idarəetmə ümumi və xüsusi metodlarını fərqləndirmək vərdişlərini inkişaf etdirməkdən ibarətdir.<br><br>**Sosial sığorta**<br>Sosial sığorta fiziki şəxslərin itirilmiş əmək haqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Bu fənn vasitəsilə sosial iş tələbələrinə gələcəkdə sosial müdafiə sistemində çalışmaq üçün sosial sığorta, onun məcburi dövlət sığortası və könüllü (əlavə) sığorta formalarının olması, sosial sığorta hadisəsinə pensiya yaşına çatmaq; əlilliyin müəyyən edilməsi; ailə başçısını itirmək; hamiləlik və doğum; uşağın anadan olması; uşağa qulluq; ölüm; sanatoriya-kurort müalicəsi zərurəti; əmək qabiliyyətinin müvəqqəti itirilməsi hallarının daxil olması kimi əsas biliklər verilir. Sosial sığorta fənninin məqsədlərinə tələbələrə həmçinin sığortaedənlərin və sığortaolunanların hüquq və vəzifələri, məcburi dövlət sosial sığorta haqqı dərəcələri, könüllü (əlavə) sosial sığorta, dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən orqanın hüquqları və vəzifələrinin öyrədilməsi də daxildir. | 4 |
| 33. | **İşgüzar ingilis dili**<br>İngilis dili beynalxalq dil olmağı ilə yanaşı, həmçinin əsas işgüzar dilidir. Bu baxımdan işgüzar ingilis dilinin yüksək səviyyədə bilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, işgüzar ingilis dili bacarıqlarının artırılması iş effektivliyini, biznes və karyera perspektivlərinin yüksəldilməsinə köməkilik edəcəkdir. Bu fənn vasitəsi ilə tələbələr şifahi ingilis dili üzrə işgüzar ünsiyyət bacarıqları və özünə inamı artırmaq, müzakirə və danışıqlar üçün dil bacarıqlarını inkişaf etdirmək, ingilis dilində təqdimatlar etmək, işgüzar yazışma qaydaları, habelə ingilis dilli ölkələrin biznes mədəniyyəti və protokol məsələlərini öyrənmək imkanına yiyələnəcəklər. Xarici dilin tədrisi zamanı tələbələrdə dilin komponentlərinin(tələffüz, lüğət və qrammatika) və dil bacarıqlarının(oxu,yazı, dinləmə və danışıq) inkişaf etdirilməsi diqqət mərkəzində durur. Tədris materialının ardıcıllığına gəldikdə demək lazımdır, ki burada məqsəd tələbələrlə şifahi nitq vərdişlərini mümkün qədər tez inkişaf etdirməkdən ibarətdir, yəni ilk növbədə dildə ən çox yayılmış hadisələri öyrənmək lazımdır. Bu fənnin tədrisində qrammatikaya da xüsusi yer verilir.<br><br>**Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları**<br>Azərbaycan Respublikasının Konstitisiyası, Azərbaycan dövlətinin konstitusiya statusu, Azərbaycan Respublikası vətəndaşlığı, insan və vətəndaş hüquqları, azadlıqları və vəzifələri, dövlət hakimiyyəti, Konstitusiya əsasında hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, icra hakimiyyəti və onun orqanları, məhkəmə hakimiyyəti, onun quruluşu və sistemi, əmək hüququnun əsasları, mülki hüququn əsasları, ailə hüququnun əsasları, cinayət hüququnun əsasları. | 3 |

| | | |
|---|---|---|
| 34. | **İnsan hüquqları**<br>Müasir dövrdə əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir. Mütərəqqi haldır ki, Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğu tarixində ilk dəfə olaraq insan hüquqlarının təbii xarakter daşımasını özündə əks etdirmişdir. Belə ki, Əsas Qanunumuza müvafiq olaraq, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır və bu hüquqların da reallaşdırılmasında keyfiyyətli hüquq təhsilinin mühüm rolu şübhəsizdir. Fənnin proqramında insan hüquqlarının ən aktual məsələlərinə həsr olunmuş mü-hazirələr öz əksini tapmışdır. Əsas etibarilə insan hüquqlarının anlayışı, mahiyyəti və əsas prinsipləri, müasir strukturu, mənbələri, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, universal müqavilə və qeyri-müqavilə mexanizmləri, Avropa Şurası və insan hüquqlarının müdafiəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, insan hüquqlarının beynəlxalq müdafiəsinin regional sistemi, insan hüquqlarının müdafiəsində ombudsmanın rolu, insan hüquqları və beynəlxalq humanitar hüquq kimi mövzulara həsr olunmuş mühazirələrin tədris olunması nəzərdə tutulmuşdur. | 3 |
| | **İqtisadiyyat**<br>Fənnin əsası mülkiyyət münasibətləri, iqtisadi sistem, iqtisadi insan modelləri, iqtisadiyyatda əmək münasibətləri, əmək bazarı, əmək haqqı, məşğulluq, həyat səviyyəsi, əmtəə-pul münasibətləri, istehlak xərcləri və mənfəət, bazar iqtisadiyyatı və onun modelləri, kapital bazarı, torpaq bazarı, renta münasibətləri, ictimai təkrar istehsal sistemində qeyri-istehsal sahələrinin rolu, müasir iqtisadi şəraitdə sığorta, dünya təsərrüfatı ilə bağlı məsələləri əhatə edir. | |
| 35.<br>36. | **Sosial struktur, sosial institutlar və proseslər**<br>Sosial struktur, sosial institutlar və proseslər fənnində sosial strukturun əsas xassələri, stratifikasiyanın tarixi tipləri, ictimai rəyin mahiyyəti, sosial institutların növləri, sosial institutların funksiyaları, ailə strukturlarının tipologiyası, cəmiyyət və sosial proseslər arasındakı münasibətlər, sosial dəyişikliklərin səbəblərinin əsas tipləri öyrənilir. Bu fənnin tədrisi tələbələrdə sosiologiyanın institutları olan dinin sosiologiyası, ailənin sosiologiyası, mədəniyyətin sosiologiyası, təhsilin və elmin sosiologiyası, ictimai rəyin sosiologiyası haqqında ümumi biliklərin formalaşmasında əhəmiyyətli rol oynayır. “Sosial struktur, sosial institutlar və proseslər fənninin” tədrisində əsas məqsəd sosial strukturun xüsusiyyətlərini, müasir səviyyələrini, cəmiyyətin sosial strukturunda baş verən meyillərin məzmun rəngarəngliyini göstərmək və bu sahədə elmi axtarışların mümkün perspektivləri ilə tələbələri tanış etməkdən ibarətdir. Tələbələrdə sosial institutların əsas istiqamətləri haqqında təsəvvür yaratmaqdan ibarətdir. | |
| | **Ontologiya və idrak nəzəriyyəsi**<br>Bu elm çərçivəsində varlıq və bilik nəzəriyyəsi klassik və müasir fəlsəfi sistemlərin semantik nüvəsi aspeltində öyrənilir. Burada fənnin tədrisinin əsas məqsədi tələbələrin əsas ontoloji və qnoseoloji anlayışlarla ilkin tanışlığıdır. Burada fəlsəfi metod vasitəsilə bilikdə tarixi və nəzəriliyin vəhdəti prinsipi müəyyən edilir: varlıq məsələsinin və onun idrak şərtlər-inin tərtibinin tarixi inkişafinda onun nəzəri məzmunu açılır. Bu fənn iki | 4 |

| | | |
|---|---|---|
| | hissədən ibarətdir.Birinci hissə (“Ontologiya: Varlıq sualının ifadəsi”) qədim, orta əsrlər və müasir Avropa metafizik anlayışlarının mənalı icmalını təqdim edir. Eyni zamanda, ontologiyada kosmos, teo- və antroposentrik paradiqmaların spesifikasını müəyyən edən mifopoetik, dini-doktrinal, mədəni və dünyagörüşü ilkin şərtlərinin aşkara çıxarılmasına, habelə müvafiq terminoloji sistemlərin və metodoloji əsasların nəzərdən keçirilməsinə xüsusi diqqət yetirilir. İkinci hissə ( Estemologiya: idrak reallığın “inikası və “konstruksiyası” kimi ) insanın ətrafdakı reallıq haqqında biliklərinin onların effektivliyi və həqiqəti baxımından formalaşdırılmasının müxtəlif yollarını, yəni bilik sistemlərinin digərləri ilə əlaqəsini təsvir edir. | |
| 36. | **Sosial siyasi təhlil və lobbiçilik**<br>Sosial siyasi təhlil və lobbiçilik fənnində siyasi təhlill və proqnozlaşdırmanın əsasları, siaysi qərarların informasiya komponentləri, siyasi qərarların dövriyyəsi öyrənilir. Bu kursda siyasi təhlilin yaranma tarixi, müasir siyasi təhlilin yaranması, siyasi təhlil etikası, siyasi təhlilin informasiya təminatı, siyasi təhlilin metodları, siyasi proqnozlaşdırma və onun metodları, proqnozlaşdırmanın subyektiv və obyektiv metodları, siyasi təhlilin növləri, siyasi qərarların əlamətləri, sosial proseslərin proqnozlaşdırılması, diaspor quruculuğu, lobbiçilik şərh edilir. Sosial siyasi təhlil və lobbiçilik fənninin tədrisi tələbələrdə sosial-siyasi proqnozlaşdırma, lobbiçilik və diaspora haqqında ümumi biliklərin formalaşmasında əhəmiyyətli rol oynayır. | |
| | **Qaçqın və məcburi köçkünlərlə sosial iş**<br>Miqrasiya istər mühacirət, istərsə də immiqrasiya ölkəsi kimi bütün cəmiyyətlərə təsir edən qlobal problemdir. Sosial iş sahəsində miqrasiya praktiki məsələləri, yəni tez-tez travmatik şəraitdə köçkün düşmüş fərdlər, ailələr, qruplar və müxtəlif mədəniyyətlərlə necə işləmək kimi halları əhatə etməklə yanaşı fəlsəfi və aksioloji məsələlərə qədər bir çox problemə yanaşma ilə məşğul olur. Dövlətlər hər il dəyişən miqrasiya hadisəsinə uyğunlaşmaq üçün mübarizə apardıqca və tədbirlər gördükçə müxtəlif milli, dini və s. kimi dəyərlərə etirazlar edilir, qarşı çıxılır. Belə vəziyyətdə ümumbəşəri insan haqları və dəyərləri çərçivəsində fəaliyyət göstərməyi özünə öhdəlik götürmüş sosial iş sahəsi üçün kadrları yetişdirmək əhəmiyyət daşıyır.<br>Bu fənnin məqsədi insan hüquqlarının müdafiəsi və təşviqi ilə məşğul olan, etnik mənsubiyyətindən, dilindən, cinsindən, dinindən və ya etiqadından, ideologiyasından, yaşından, fiziki imkanlarından, statusundan və ya ayrı-seçkiliyə səbəb ola biləcək hər hansı digər vəziyyətdən asılı olmayaraq, bütün dünyada ən həssas əhali qrupu ilə yerli və beynəlxalq qanunlar çərçivəsində işləməyi bacaran sosial işçilər hazırlamaqdır. | 3 |
| 37. | **Sosial səhiyyənin əsasları**<br>“Sosial səhiyyənin əsasları” fənni tələbələri səhiyyə sistemi, bu sistemə daxilən olan xidmətlərlə tanış edir, əhalinin sağlamlığına təsir edən ətraf mühit amilləri və insan sağlamlığını pozan müxtəlif xəstəliklər haqqında məlumatlandırır. Ayrı-ayrı xəstəliklərdən əziyyət çəkən fərdlərə, onların ailələrinə dəstək olmaq, resurs və xidmətlərə əlçatanlığı təmin etmək yollarını, o cümlədən əhalinin sağlamlığının və sosial rifahının artırılması məqsədilə biopsixososial yanaşmanın tətbiqi qaydalarını öyrədir. | |
| | **Narkotik maddə istifadəçiləri və alkoqoldan asılı şəxslərlə sosial iş**<br>Narkotik maddə istifadəçiləri və alkoqoldan asılı şəxslərlə sosial iş fənni | 5 |

| | | |
|---|---|---|
| | tələbələrə narkotik maddələrdən asılılığın bioloji və sosial-psixoloji risk faktorları, asılılığı olan insanları tanıya bilmək yolları haqqında nəzəri biliklər verir, zərərli maddələrdən asılı olan insanların müalicə və reabilitasiyası haqqında məlumatlandırır və reabilitasiya prosesində tətbiq edilən üsullara dair bacarıqlarla təmin edir. Həmçinin tələbələr narkotik vasitələr və psixotrop maddələrdən asılılıq və müalicəsinə dair beynəlxalq və milli qanunvericiliklə tanış olur, davranış asılılığı haqqında da maariflənirlər. Bundan əlavə, asılılığın müalicə və reabilitasiyasında istifadə edilən əsas texnikalar və alternativ müalicə üsulları haqqında biliklər təhlil olunur və asılılığı olan insanların müalicə və reabilitasiyasında sosial işçinin rollarına daxil olan profilaktik tədbirlər haqqında tələbələrə zəruri biliklər verilir. | |
| 38. | **Uşaq və yeniyetmələrlə sosial iş**<br>Uşaq və yeniyetmələrlə sosial iş fənni xüsusi qayğıya ehtiyacı olan uşaqlar, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi, uşaqların sosial xidmət müəssisələrinə düşməklərinin qarşısının alınması, eləcə də müəssisələrdəki uşaqların ailələrə qaytarılması prosesi; uşaqlara qarşı törədilmiş zorakılığın növləri və mənfi nəticələri, davranış problemi olan yeniyetmələrlə sosial iş, qanunla münaqişədə olan və cinsi istismara məruz qalan uşaqlarla aparılan sosial iş təcrübəsindən bəhs edir. Yuxarıda qeyd olunan həssas təbəqədən olan uşaq və yeniyetmələrlə sosial iş təcrübəsi zamanı əsas götürülən sosial iş keys menecment standartları, prinsipləri və müdaxilə planının hazırlanması, icrası və işin gedişatının izlənməsi qaydaları da bu fənnin əsas məqsədlərindən hesab olunur. | |
| | **Sosial işin deontologiyası**<br>Sosial işdə deontologiya və etikanın ümumi məqsədi peşə öhdəliklərinin tanınmasını inkişaf etdirmək, peşəkar təcrübədə rast gəlinən dilemmaların qiymətləndirilməsi və müvafiq qərarların qəbulu üçün meyarların yaradılmasıdır.Bunun üçün bu fənn sosial işçilərin praktikada qarşılaşdıqları problemlərlə məşğul olarkən lazımi nəzəri alətləri təmin etməklə yanaşı, peşə etikasını düzgün başa düşmək və həyata keçirmək üçün onları necə tətbiq etməli olduqlarını göstərir. Bu fənnin məqsədi sosial iş tələbələrinə müasir etik nəzəriyyələr və sosial iş, sosial işin etik prinsipləri, tətbiqi və peşəkar etika, mənəvi dilemmaların təsnifatı, sosial işdə münaqişələrin həlli və qərarların qəbulu kimi əsas bilik və bacarıqları öyrətməkdir. | 6 |
| 39. | **Sosial təhlükəsizlik**<br>Sosial təhlükəsizlik dövlətin hüquqi bazalarından kimi hesab edilən sosial hüququn əsasında yaradılmış, əhalinin riskli vəziyyətlərdə sosial müdafiəsini təşkil edən vəziyyətdir. Buraya təhlükəsiz əmək şəraiti, dövlətin hüdudları daxilində sərbəst yerdəyişmə və yaşayış yerini seçmək, işsizlikdən müdafiə, sosial təminat və sosial sığorta hüququ, eləcə də müvafiq sosial və maddi təminat hüququ, sağlamlığını saxlayan həyat səviyyəsi kimi sosial-iqtisadi müdaxilələri tənzimləyən yanaşmalar sistemi daxildir. Bu fənn sosial iş tələbələrini həssas təbəqə ilə işləyərkən dövlətin sosial müdafiə sistemi daxilində əhalinin sosial təhlükəsizliyini qoruması mexanizmləri ilə tanış edir. | |
| | **Əlilliyi olan insanlarla sosial iş**<br>Əlilliyi olan insanlarala sosial iş fənni fiziki, əqli, emosional, sensor və ya | 5 |

| | | |
|---|---|---|
| | öyrənməklə bağlı əlillikləri olan fərdlərə və onların ailəsinə dəstək olmaq üçün sosial işin mikro, mezo və makro perspektivlərini və proseslərini tələbələrə təqdim edir. Bu fənn əlilliyi olan uşaqlar və onların ailələrinə daha çox diqqət yetirilməklə yanaşı, bütün yaş dövrlərində əlilliyi olan insanlara qanunlar və sosial iş təcrübəsi daxilində sosial xidmət göstərməyi əhatə edir. | |
| 40. | **Dini icmalarla iş**<br>Dini icmalarla iş fənni tələbələri dini insanların mənəvi ehtiyacı və dəyəri kimi tanıdır, eləcə də cəmiyyətlərin dini müxtəlifliyə malik icmalardan formalaşmasından bəhs edərək sosial iş təcrübəsi çərçivəsində dini icmalarla işləməyin etik prinsiplərini öyrədir. Bu fənn həmçinin tələbələri müəyyən siyasi qüvvələrin insanların dini dünyagörüşləri və inamları üzərindən dağıdıcı məqsədlə onları manipulyasiya etməklərindən bəhs edir, bu kimi həssas məqamlarda dövlətin və cəmiyyətin ümumi rifahı naminə sosial işçilərə peşəkar yanaşmaq qaydalarını öyrədir. | 4 |
| | **Pensiya təminatı**<br>Pensiya təminatı sistemi dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və başlıca istiqamətlərdən biridir. Azərbaycanda mövcud pensiya təminatı modelinin beynəlxalq təcrübədə əldə olunmuş qabaqcıl təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi zərurəti ilk növbədə ölkədə bazar iqtisadiyyatına keçidin uğurla başa vurulması və yeni reallıqlar müstəvisində vətəndaşların pensiya təminatının daha yetkin mexanizmlər vasitəsilə həyata keçirilməsinə imkan verən sistemin yaradılması ilə bağlıdır. “2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası” əhatə etdiyi dövrdə pensiya təminatı sahəsində dövlət siyasətinin əsaslarını müəyyənləşdirdi.<br>Bu fənn sosial müdafiə və sosial xidmət sahələrində çalışacaq sosial iş tələbələrinə pensiya təminatı və bu sahədə beynəlxalq təcrübəni, Azərbaycan Respublikasında pensiya təminatı sisteminin mövcud vəziyyətini və qanunvericiliyi, pensiya təminatı sisteminin islahatının əsas məqsəd və vəzifələrini, eləcə də həyata keçirilməsinin əsas istiqamətlərini və tədbirlər planını öyrətmək məqsədi daşıyır. | |
| 41. | **Sosial reabilitasiya**<br>“Sosial Reabilitasiya” fənni reabilitasiya və onun növləri: tibbi reabilitasiya, psixo-sosial reabilitasiya və peşə reabilitasiyası, əmək terapiyası, şəfaverici baxçılıq terapiyasına dair biliklər verir. Psixiatriyada sosial reabilitasiya, zərərli maddə asılılığı olan fərdlərin sosial reabilitasiyası, cəzacəkmə müəssisələrində sosial reabilitasiya, yaşlıların sosial reabilitasiyası qaydalarını öyrədir və müvafiq bacarıqlarla təmin edir. Küçə həyatına məruz qalmış və əməyi istismar olunan uşaqlara dəstək, təbii fəlakət qurbanları olan fərdlər və qruplara psixo-sosial dəstək, miqrantlarla, Veteran, müharibə və terror qurbanları ilə sosial reabilitasiyanın şərtlərilə tanış edir. | |
| | **İctimaiyyətlə iş**<br>İctimaiyyətlə sosial iş icmaların və onların üzvlərinin ümumi rifahını cəmləşdirən sosial iş sahəsidir. Bu sahədə sosial işçilər kiçik, orta və böyük həcmdə icmalarla məşğul olurlar. Buraya kəndlər, rayonlar, şəhərlər, əyalətlər və cəmiyyət daxilində müxtəlif etnik xalqlarla işləmək daxil ola bilər. İnsan çox vaxt yaşadığı mühit nə qədər sağlamdırsa, bir o qədər sağlam ola bilər. Həmçinin, bir cəmiyyətin rifahı onun vətəndaşlarının | 4 |

| | | |
|---|---|---|
| | əksəriyyətinin rifahından birbaşa təsirlənir. Bu səbəblərdən ictimaiyyətlə iş fənni həm ayrıca fərdlər, həm də bütövlükdə cəmiyyətlə işləyəcək kadrların hazırlanmasında xüsusi rol oynayır. Sosial iş sahəsində ictimaiyyətlə işin xüsusiyyətləri Sosial İşçilərin Milli Assosiasiyasının Etik Kodeksində göstərilmişdir. Bu kodeksin 6.01 standartına görə sosial işçilər yerli səviyyədən qlobal səviyyəyə qədər cəmiyyətin ümumi rifahını və insanların, onların icmalarının və ətraf mühitin inkişafına kömək etməlidir. Sosial işçilər əsas insan ehtiyaclarının yerinə yetirilməsinə şərait yaradan həyat şəraitini müdafiə etməli və sosial ədalətin həyata keçirilməsinə uyğun olan sosial, iqtisadi, siyasi və mədəni dəyərləri və təşkilatları təşviq etməlidirlər. Kodeksin 6.02 standartına uyğun olaraq, sosial işçilər sosial siyasət və institutların formalaşdırılmasında ictimaiyyətin məlumatlı iştirakını təmin etməlidir. Kodeksin 6.03 standartı isə sosial işçilərin mümkün qədər ictimai fövqəladə hallarda müvafiq peşəkar xidmətlər göstərməklərindən bəhs edir.<br>Bu fənn sosial işçilər üçün nəzərdə tutulmuş peşəkar etik kodeksin ictimaiyyətlə iş prinsiplərinə uyğun olaraq tələbələri ictimaiyyətlə işin vacibliyi, işin qaydaları, fövqaladə vəziyyətlərdə necə bir müdaxilə planının hazırlanması haqqında bilik və bacarıqların öyrədilməsini nəzərdə tutur. | |
| 42. | Təcrübə | 30 |
| CƏMİ AKTS | | 240 |